## Səxavət İzzəti Əndəlib

# Bəlkə də Ölülər Bizə Gülürlər

Sevgini, sevinci büküb qəmlərə,
Həyatda bir gülüb, yüz ağlayanda,
Dirilər üstünə mərmilər töküb,
Ölülər dalınca göz ağlayanda,
Hər gün qucaqlayıb qəbir daşların,
Yanıqlı- yanıqlı biz ağlayanda,
Bəlkə də, ölülər bizə gülürlər.

Dünya şirinləşir bizə günbəgün,
Bu bal bar dağından doyan tapılmaz,
"Dünya vəfasızdır, ömürlər fanı" –
Deyən tapılsa da duyan tapılmaz,
Baxıb börkümüzə belə deyəndə:
"Bir zaman səni də qoyan tapılmaz"
Bəlkə də ölülər bizə gülürlər.

Hələ də bilmirik bu nədir belə,
Yaradır min dərdi, min ahı bizdə,
Bizikmi dünyanın günah çeşməsi?
Ya dünya yaradır gunahı bizdə.
Halalı, haramı qatışıq salıb,
Görəndə yüyənsiz tamahı bizdə,
Bəlkə də ölülər bizə gülürlər.

Haçansa şeytanın üzünə gülüb,
Uçur nəfsimizin havası uçur.
Fəlakət divinin əlində əsır,
Dünyanın səadət bınası uçur.
Haçansa insanın toxunub əlı,
Bir gunahsız qüşün yuvası uçur.
Sular zəhərlənir nəfəsimizdən,
Meşədən meşəlik cəlalı uçur.
Uçurdub bu qədər gözəllikləri,
Sonra matəm tütüb, yas saxlayanda,
Bəlkə də ölülər bizə gülürlər.

Qudrət kürsüsündən, güc kürsüsündən
Gəlir siyasətin gophagop səsi,
Vurhavur çağıran səslər çoxalır
Burda eşidilmir "dayan", "hop" səsi,
Bəlkə ölülərin şivən səsidir.
Iyrənc tüfəng səsi, qorxunc top səsi,
Səs səsə veriblər top tüfəng ilə
Bəlkə də ölülər bizə gülürlər.

Ölülər gülürlər onlardan niyə,
Ibrət götürmədik, maya dərmədik?
Ölülər gülürlər, – onlardan qalan
Dağılmış yurdları niyə görmədik?
Yüz min həsrətilə söyləyəndə biz;
"Dünya gülşənində səfa görmədik"
Bəlkə də ölülər bizə gülürlər.